# "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 983-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 983-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 983-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsviri"nin 2.1-ci və 2.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi nəzərdə tutulur;

1.4. həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsviri"nin 2.1-ci və 2.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi İdarə Heyətinin sədrinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 983-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2023-cü il*

Azərbaycan.- 2023.- 5 avqust.- S. 8.